*Akademik Tarih ve Düşünce Dergisi* *Academic Journal of History and Idea*
*ISSN: 2148-2292*
*10 (2) 2023*
*https://doi.org/ 10.46868/atdd.2023.*
*Derleme Makalesi | Review article*
*Geliş tarihi |Received : 14.10.2022*
*Kabul tarihi |Accepted: 25.10.2022*
*Yayın tarihi |Published : 10.11.2023*

**Nadir Ismayılov**

*https://orcid.org/0009-0008-5541-280X*
*Associate professor, Baku State University, Azerbaijan, menecment02@mail.ru*

**Əliyusif Məmmədov**

*https://orcid.org/0000-0001-5631-2044*
*Head teacher, Baku State University, Azerbaijan, yusif5@hotmail.com*

*Atıf Künyesi | Citation Info*

Ismayılov, N., Məmmədov, Ə. (2023). Azərbaycan kitabxanalarının lideri yeni yüzillikdə M.F. Axundov adına Azərbaycan Milli Kitabxanasının yaradılmasının bir əsri tamam olur. *Akademik Tarih ve Düşünce Dergisi, Türkiye-Azerbaycan İlişkilerinin 100. Yılı Özel Sayısı,* 10 (2), 634-642.

# Azərbaycan kitabxanalarının lideri yeni yüzillikdə M.F. Axundov adına Azərbaycan Milli Kitabxanasının yaradılmasının bir əsri tamam olur

***Xülasə***

*Məqalə Azərbaycanın əsas kitabxanası olan M. F. Axundov adına Azərbaycan Milli Kitabxananın 100 illik yubileyinə həsr edilmişdir. Bu məqalədə əsasən yeni dövrün tələb və çağrışlarına cavab vermək üçün Kitabxanada baş vermiş köklü dəyişikləklətfən, bu dəyişikliklərin Kitabxanada yerinə yetirilən proseslərə, istifadəçilərə göstərilən xidmətə müsbət təsirindən bəhs edilir. Burada ilk növbədə diqqət hələ keçən əsrin son onilliyində başlanan, lakin müxtəlif təşkilati, maliyyə səbəblərindən yarıda qalmış texniki yenidənqurmanın hazırlıq mərhələsinə yönəldilmiş, bu istiqamətdə fəaliyyətin ayrı-ayrı məqamları izah edlmişdir. Bu zaman qeyd edilir ki, Kitabxanafa nəzərdə tutulan yenidənqurma və texiniki təchizat, müasir texnologiyaların tətbiqinin hazırlıq mərhələsi ilk növbədə bir sıra xarici ölkələrin nümayəndəliklərinin, beynəlxalq təşkilatların yardımı əsasınada mümkün olmuşdu. Daha sonra diqqət dünya miqyasında hələ keçən əsrdən geniş tətbiq edilmiş innnovasiyaların-əmək proseslərinin kompleks avtomatlşdırılmasının, yeni texnologiyaların və iş metodlarının Milli Kitabxanada tətbiqinin başlanmasına və gedişatına yönəldilmişdir və göstərilmişdir ki, bu istiqamətlərdə tədbirlərin həyata keçirilməsi Kitabxananın fəaliyyətinin səmərəliyinin artırılmasına, göstərilən xidmətin keyfiyyətinin və həcminin əhamiyyətli dərəcədə*

*yüksəldilməsinə imkan vermişdir. Məqalədə Milli Kitabxananın beynəlxalq əlaqələrinə də ayrıca diqqət verilmişdir. Məqalənin sonunda istifadə edilən ədəbiyyatın biblioqrafik siyahısı verilmişdir.*

***Açar sözlər**: Azərbaycan Respublikası, Milli Kitabxana, dövlət kitabxanası, Elmlər Akademiyası, texniki yenidənqurma, Avrasiya Fondu, Açıq Cəmiyyət İnstitutu, İRTCL, USAİD təşkilatı, VTLS korporasiyası, VİRTUA proqram kompleksi, biblioqrafik resurs, proqram təminatı yeni texnologiya, avtomatlaşdırma, elektron resurs, sənəd tolplusu, elektron kataloq*

## The leader of Azerbaijani libraries in the new century– One century of the establishment of the M.F. Akhundov named National Library of Azerbaijan is coming to an end

***Abstract***

*The article is dedicated to the 100th anniversary of the Azerbaijan National Library named after M. F. Akhundov, the main library of Azerbaijan. This article mainly talks about the radical changes that have taken place in the Library to meet the challanges and demands of the new era, and the positive impact of these changes on the processes performed in the Library and the service provided to users. Here, first of all, the attention is focused on the preparatory stage of the technical reconstruction, which was started in the last decade of the last century, but was interrupted due to various organizational and financial reasons, and the separate points of the activity in this direction are explained. At this time, it is noted that the planned reconstruction and technical equipment of the Library, the preparatory phase of the application of modern technologies was possible primarily on the basis of the assistance of the representations of a number of foreign countries and international organizations. Later, attention was focused on the initiation and progress of the implementation of innovations-complex automation of labor processes, new technologies and work methods in the National Library, which have been widely applied since the last century, and it was shown that the implementation of measures in these directions significantly increases the efficiency of the Library's activities, the quality and volume of the provided service. allowed to raise the level of these services. The article also paid special attention to the international relations of the National Library. A bibliographic list of the used literature is given at the end of the article.*

***Keywords:** Republic of Azerbaijan, National Library, state library, Academy of Sciences, technical reconstruction, Eurasian Foundation, Open Society Institute, IRTCL, USAID organization, VTLS corporation, VIRTUA software complex, bibliographic resource, software new technology, automation, electronic resource, document collection, electronic catalog*

### Giriş

Bu günlər Azərbaycanın kitabxana işçiləri, eləcə də kitabı və kitabxananı sevənlər ölkə kitabxanalarının lideri, M.F. Axundov adına Azərbaycan Milli Kitabxanasının yaradılmasının yüz illiyini qeyd edir. Bu kitabxananın yaranması və inkişafı tarixi çox maraqlı

mövzudur. Lakin biz bundan əvvəlki yazılarda həmin məsələni təhlil etdiyimizdən, bu yazıda ancaq kitabxananın yeni minillikdəki fəaliyyətinə diqqət yetirəcəyik.

Məlumdur ki, XX əsrin son rübü dünya kitabxana işi üçün həqiqətən inqilabi dəyişikliklər dövrü olmuşdu. Kitabxanalara daxil olan sənəd axının xeyli güclənməsi, fondların həcminin artması, daxil olan oxucu sorğularının miqdarının və mürəkkəbliyinin atması kitabxana fəaliyyətində köklü dəyişiklikləri, əsaslı yenilənməni qaçılmaz etdi. Bunun nəticəsində kitabxanalarda yeni üsul və metodlar geniş vüsət aldı, ən başlıcası isə iş proseslərini avtomatlaşdırmağa, nəticədə əmək məhsuldarlığını artırmağa, kitabxana proseslərini daha tez və keyfiyyətli icra etməyə, yeni iş metodlarını tətbiq etməyə imkan verən texniki vasitələr və proqram təminatı, şəbəkə texnologiyaları geniş miqyasda tətbiq edildi. Lakin təəssüf ki, Azərbaycanın məruz qaldığı geniş miqyaslı təcavüz, ölkənin ərazisinin əhəmiyyətli hissəsinin işğal edilməsi, bi milyona yaxın soydaşımızın qaçqın və məcburi köşkün düşməsi bir çox vacib məsələlər kimi, dünya miqyasında kitabxana işi sahəsində tətbiq edilən yenilikləri zamanında tətbiq etməyə imkan vermədi və biz bu sahədə xeyli gecikdik. Kitabxanalarda, eləcə də .F. Axundov adına Azərbaycan Milli Kitabxanada əsaslı yenilənmə, yeni texnologiyaların tətbiqi ancaq XX əsrin ərəfəsində və yeni minillikdə mümkün oldu.

Kitabxanada yeni texnologiyalarını tətbiqi sahəsində ilk işlər 1998-ci ildə başlamışdı. Bu zaman Avrasiya fondu və ABŞ-ın USAİD təşkilatının maddi yardımı ilə Elmlər Akademiyasının İnformasiya və Telekommunikasiya Elmi Mərkəzinin texniki dəstəyindən istifadə etməklə "Dövlət Kitabxanasının beynəlxalq İnternet şəbəkəsinə qoşulması" adlı layihə əsasında Kitabxananın internetə qoşulması oldu. Layihədə nəinki Kitabxananı internetə qoşmaq, habelə Kitabxanada həm işçilərin, həm də oxucuların istifadə edə biləcəyi internet zalı təşkil etmək, həmin zalı lazımi avadanlıqla, kompüterlərlə təchiz etmək, internetdən istifadə etmək üzrə təlimlər keçirmək, və bu zaldan istifadə etməklə, oxuculara xidmətin yeni növlərini göstərmək nəzərdə tutulurdu. Bir sıra təşkilati və digər işlər yerinə yetirildikdən sonra 2000-ci ilin 18 iyul tarixində layihə istifadəyə verildi. Həmin layihəyə uyğun olaraq Kitabxanaya 1 ədəd server, 6 ədəd kompüter, 2 ədəd çap qurğusu, 1 ədəd skaner və digər texnika, müxtəlif ofis avadanlığı və lazımi proqram təminatı verildi. Yaradılmış internet zalında istifadəçilərə kompüterlərdə və skanerdə işləmək, çap qurğusundan və internetdən istifadə etmək və s. imkanlar yaradıldı (M. F. Axundzadə adına Azərbaycan Milli Kitabxanasının illik hesabatları. 2000-2016-cı illər). Kitabxanada yeni informasiya texnologiyaların tətbiqi sahəsində işlər sonrakı illərdə də davam etdirildi. Avropa Birliyinin Azərbaycana yardım proqramı çərçivəsində 2004-cü ilin sentyabr ayında Kitabxanaya 25

ədəd kompüter, 4ədəd printer, 25 ədəd kompüter masası, 30 ədəd oxucu masası, 80 ədəd stul verilmişdi.

2004-cü ilin dekabr ayının 26-da Milli Kitabxanada Azərbaycan və Yaponya hökumətləri arasında hökumətlərarası müqaviləyə əsasən Yaponiya tərəfindən Kitabxanaya xeyli miqdarda kompüterlər və bir sıra lazımi texniki qurğular hədiyyə edildi. Bu avadanlıq mikrofilmləri, köhnə tipli multimedia sənədləri(qrammofon valları, maqnitofon kasetləri) oxuna, istifadə edilə və elektron formaya çevrilə, kompakt disklərə yazmağa imkan verirdi (M.F. Axundov adına Azərbaycan Dövlət Kitabxanasının 2000-ci il üçün hesabatı). 2006-cı ildə Kitabxananın texniki cəhətdən təkmilləşməsinə, kompüterləşməsinə yardım edən digər bir layihə isə NATO tərəfindən həyata keçirildi. Layihəyə əsasən Kitabxanaya 10 ədəd kompüter, çap və şəbəkə qurğuları verilmiş, bu mərkəz yüksəksürətli internet kanalı ilə təchiz edilmişdi (M.F.Axundov adma Milli Kitabxananın 2004-cü il üçün hesabatı). Yuxarıda göstərilən tədbirlər Kitabxanada yeni informasiya texnologiyalarının, kompüterləşməmiin, informasiyalaşdırmanın texniki, baza hissəsi hesab edilə bilər. Lakin aydın idi ki, müasir kitabxananın əsas atributlarından biri burada yerinə yetirilən istehsalat proseslərinin, o cümlədən biblioqrafik informasiya resurslarının –elektron kataloqun yaradılması işinin avtomatlaşdırılmasdır. Buna görə də Kitabxananın internetlə təmin olunmasından sonra növbəti məntiqi mərhələ kimi elektron kataloqun yaradılması məsələsi gündəliyə gəldi. Bunun üçün Kitabxananın mütəxəssisləri ABŞ-ın Azərbaycandakı səfirliyinin yaratdığı Kitabxanalar üçün İnformasiya Resurs və Təlim Mərkəzinin(ingiliscə qısa olaraq İRTCL) mütəxəssisləri ilə məsləhətləşmələr apardılar. Nəticədə ABŞ-da yerləşən VTLS İnkorporeyted korporasiyasının məhsulunu- VİRTUA adlı avtomatlaşdırma sisteminin proqram təminatını almaq qərarı qəbul edildi və bu iş üçün “Maşınla oxunan elektron kataloqun yaradılması” adlı layihə tərtib edilərək 2002-ci ilin iyun ayında Avrasiya Fonduna, Açıq Cəmiyyət İnstitutu Yardım Fonduna və İRTCL təşkilatına təqdim edildi və müsbət cavab alındı. Beləliklə, 2002-ci ilin oktyabr ayında həmin təşkilatlarla qrant müqavilələri təsdiq edildi və praktiki işlərə başlandı. Bu sistem bir sıra müsbət cəhətləri ilə fərqlənir və kitabxananın fəaliyyətinin bir çox istiqamətlərinin kompleks avtomatlaşdırlmasına imkan verir. Bu sistemdə elektron biblioqrafik təsvirlərin tərtibi üçün MARK 21 kommunikativ formatından istifadə edilir.

VİRTUA sistemin mənimsənilib istismara verilməsi xeyli vaxt və zəhmət tələb etdi. Bu işin vacib tərkib hissələrindən biri Kitabxananın avtomatlaşdırlması üçün onun bu prosesləri yerinə yetirə biləcək strukturunun yaradılması idi. Bu səbəbdən 2006-cı ildə Kitabxananın

yeni, bu prosesləri icra edə biləcək strukturu işlənib hazırlandı, təsdiq edildi və lazımi islahat aparıldı.

Bu yeni struktur islahatından sonra formalaşmış "Elektron informasiya xidməti", "Elektron resursların yaradılması", "Kitabxana-biblioqrafiya proseslərinin avtomatlaşdırılması və informasiya texnologiyaları" şöbələrini və "Mətnlərin redaktəsi" bölməsi yaradıldı və fəaliyyətə başladı. 2006-cı ilin fevral ayından isə "Elektron kataloqun formalaşdırılmasına dəstək" şöbəsi fəaliyyətə başladı. Bu şöbələr qarşılarında duran vəzifələri intensiv şəkildə həll edərək Kitabxana proseslərinin avtomatlaşdırılması üzrə lazımi işləri görürüdülər. Eyni zamnda Kitabxananın internet saytı yaradılırdı. Bu işlərlə bərabər Kitabxananın mütəxəssislərinin kompüter biliklərini mənimsəməsi, yeni iş metodlarını öyrənmələri üçün ən müxtəlif tədris proqramları həyata keçirilir, kurslar təşkil edilirdi (M.F.Axundov adma Milli Kitabxananın 2004-cü il üçün hesabatı). Hazırlıq işləri bitdikdə sonra nəhayət ki, 2006-cı ilin may ayının 17-də Kitabxananın internet səhifəsi və elektron kataloqunun (VİRTUA proqram təminatı kompleksinin) rəsmi təqdimat mərasiminin keçirildi. Az bir müddət ərzində kitabxananın oxucuları intensiv şəkildə həm Kitabxananın binasından, həm də internet vasitəsi ilə istənilən coğrafi məkandan Kitabxananın biblioqrafik və tammətnli resurslarından geniş istifadə etməyə, lazımi sənədləri, arayışları sifariş verməyə başladılar (M.F.Axundov adma Milli Kitabxananın 2004-cü il üçün hesabatı). Tətbiq edilən sistemin texniki imkanlarından istifadə etməklə Bakı şəhərinin bir sıra kütləvi və ali məktəb kitabxanaları, respublikanın digər regionlarında yerləşən bir sıra kitabxanalar da öz fondlarını əks etdirən biblioqrafik resurslarını sistemə daxil etdilər və nəticədə respublikada ilk toplu elektron kataloq yarandı (M.F.Axundov adma Milli Kitabxananın 2004-cü il üçün hesabatı). Kitabxananın elektron kataloqunun həcminin böyüdülməsi və axtarış imkanlarının genişləndirlməsi, eləcə də yeni proqram təminatının tətbiqi prosesi durmadan davam edir. 1 avqust 2023-cü ilə olan vəziyyətə görə Kitabxananın elektron kataloqunun tərkibindəki verilənlər bazalarında cəmi 837 148 ədəd biblioqrafik yazı vardır ki, bunlardan 312 783 təsvir monoqrafik nəşrləri, 2552 təsvir ayrı-ayrı dövri və ardı davam edən nəşrləri, 1092 təsvir kolleksiyalardakı sənədləri və s. əks etdirir. Kitabxananın fondunda olan ayrı-ayrı dövri və ardı davam edən nəşrlərin tərkibini açan biblioqrafik təsvirlərə gəldikdə isə, kataloqda 519 739 belə təsvir var. Kitabxananın elektron kataloqunun baş interfeysi sənədləri ayrıca olaraq onların nəşr illərinə, formatına, məzmununa, dilinə, nəşr yerinə, sənədin kitabxananın fondunun hansı hissəsində saxlanmasına və nəhayət predmetinə görə axtarmağa və hər kateqoriya üzrə neçə adda təsvir olduğunu müəyyənləşdirməyə imkan verir. Bundan əlavə,

elektron kataloqun ətraflı axtarış üçün interfeysi də sənədi bir çox parametrlər üzrə axtarmağa imkan verir (M.F. Axundov adına Azərbaycan Milli Kitabxanasının 2006-cı il üçün hesabatı).

İstifadəçilər kataloq vasitəsi ilə lazımi sənədləri tapdıqdan sonra əyani olaraq Kitabxanaya gəlib həmin sənədi sifariş verə bilərlər. Əgər sənədin elektron versiyası vara, biblioqrafik təsvirdə həmin versiyaya keçmək üçün link qoyulur. Əgər sənədin elektron versiya yoxdursa, oxucu onu sifariş verə bilərlər.

Yeni minillikdə Milli Kitabxanada tətbiq edilən qabaqcıl texnologiya və iş üsulları kitabxanaya daha çox oxucu cəlb edilməsinə, onlara göstərilən xidmətin həcminin artmasına və çeşidinin genişlənməsinə səbəb oldu. Bunu statistik rəqəmlər də sübut edir. Belə ki, 2000-ci İl ərzində Kitabxananın 28 067 oxucusu olmuşdu ki, onlara da 791 759 nüsxə kitab verilmişdi. Qeyd edilən parametrlər 2002-ci ildə 30 487 nəfər və 933 486 nüsxə, 2004-cü ildə 27 623 nəfər və 713 714 nüsxə, 2006-cı ildə 34 083 nəfər və 783 949 nüsxə, 2008-ci ildə 37 185 nəfər və 694 017 nüsxə, 2010-cu ildə 37 686 nəfər və 738 426 nüsxə, 2012-ci ildə 36 360 nəfər və 771 023 nüsxə. 2014-cu ildə 34 923 nəfər və 874 947 nüsxə, 2016-cı ildə 30 058 nəfər və 984 861 nüsxə olmuşdur (M.F. Axundov adına Azərbaycan Dövlət Kitabxanasının 2000-ci il üçün hesabatı). Elektron kataloq müxtəlif tipli, məzmun və təyinatlı cari və monoqrafik biblioqrafik göstəricilərin tərtibi prosesini də xeyli asanlaşdırdı. Elektron kataloqun köməyi ilə müntəzəm olaraq “Yeni kitablar” və “Mədəniyyətə. İncəsənətə dair yeni kitablar” cari biblioqrafik göstəriciləri və digər göstəricilər tərtib və nəşr edilir. Yeri gəlmişkən, burada Kitabxananın həm biblioqrafik göstəricilərin, həm də digər nəşrlərin hazırlanıb nəşr edilməsinə və ümumiyyətlə Kitabxananın fondunda təmsil olunmasına diqqət yetirmək məqsədəuyğun olardı. Belə ki. hal hazırda Kitabxananın fondunda 1537 adda biblioqrafik vəsait mövcuddur ki. bunların içərisində əhəmiyyətli yeri Kitabxananın özü tərəfindən nəşr edilmiş göstəricilər tutur. Məsələn, kitabxananın yarandığı ilk 70 ili (1923-1993-cü illər) ərzində onun nəşriyyatçılıq fəaliyyətini əks etdirən biblioqrafik göstəricidə Kitabxana tərəfindən buraxılmış 806 adda nəşr haqqında biblioqrafik məlumat verilir ki, bunların da böyük hissəsi biblioqrafik göstəricilərdən ibarət idi (M.F. Axundov adına Azərbaycan Respublika Dövlət Kitabxanasının nəşrləri: 1923-1993-cü illər: biblioqrafik göstərici, 1993, s.124). Bizim təxmini hesablamalarımıza görə, 1994-2022-ci illərdə Kitabxanada 300-dən çox müxtəlif nəşrlər buraxılmışdır ki. bunlardan da böyük hissəsi biblioqrafik göstəricilərdən ibarətdir.

Kitabxanada fondda olan sənədlərin skan edilərək elektron versiyasının yaradılması və Kitabxananın saytı vasitəsi ilə oxucuları təqdim edilməsi sahəsində də intensiv iş aparılır.

Kitabxanada bu sahədə ilk işlər 2002-ci ildə başlanmışdır. Həmin il Açıq Cəmiyyət İnstitutunun Yardım Fondunun Bakı şöbəsi respublika kitabxanalarına məşhur ‘’Qutenberq” layihəsi çərçivəsində elektron kitablar yaratmağı təklif etdi və Dövlət Kitabxanası da bu işə qoşuldu. Sonrakı illərdə Kitabxanada bu işləri yerinə yetirmək üçün texniki imkan yaranandan, kitabxanaçıların bu işi görmək üçün lazımi bilik və vərdişləri mənimsəməsindən sonra bu istiqamətdə intensiv işlərə başlandı. Kitabxanada ilk növbədə oxucuların daha çox istifadə etdikləri kitablar, eləcə də milli mədəni irs üçün əhəmiyyət kəsb edən kitablar və digər nəşrlər skan edilərək kitabxananın tammətnli verilənlər bazasına yerləşdirilir. Bu sahədə gərgin fəaliyyətin nəticəsi olaraq hal-hazırda Kitabxananın serverində 11885 adda elektron resurs mövcuddur (https://www.millikitabxana.az/databases/index). Avtomartlaşdırma sistemi və internet texnologiyaları bir sıra ənənəvi kitabxana iş metodlarını daha səmərəli təşkil etməyə, daha çox istifadəçinin yararlanmasına imkan verir. Belə ki, Kitabxana artıq uzun müddətdir ki, İnternet vasitəsi ilə müxtəlif ədəbiyyat sərgiləri keçirir.

Kitabxana tərəfindən həyata keçirilən digər innovativ iş oxucuları maraqlandıra birən mövzular üzrə, eləcə də müxtəlif tarixi günlərə, yubileylərə, tanınmış insanların həyatı və yaradıcılığına dair on layn topluların yaradılmasıdır. Bu topluları eləcə də tematik və ya personal mini saytlar da adlandırmaq olar. Bu toplularda mövzu ilə əlaqədar əsas məqalə, bu mövzu üzrə nəşr edilmiş kitablar, məqalələr, lazım gəldikdə xronoloji informasiya, bir sıra hallarda fotolar, bəzən isə multimediya fallar yerləşdirilir, Adətən bu toplularda mövzu ilə əlaqədar digər materialların biblioqrafik siyahıları da verilir. İndiyə qədər Kitabxanada 79 adda belə toplu yaradılmışdır. Bunlardan personal toplulara misal olaraq Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar yaradılmış toplunu, Prezident İlham Əliyevin fəaliyyətinə dair toplunu, alim və ictimai xadim Əziz Əliyevə, bəstəkarlar Qara Qarayevə, Fikrət Əmirova, Emin Sabitoğluna və digərlərinə, yazıçı və pedaqoq Mir Cəlal Paşayevə, alimlərdən professor Lutfizadəyə, Qəzənfər Paşayevə, Abuzər Xələfova, bir sıra tanınmış yazıçılara, şairlərə, jurnalistlərə, dramaturqlara və Azərbaycanın digər tanınmış şəxslərinə həsr edilmiş topluları göstərmək olar. göstərmək olar. Tematik toplulardan Azərbaycanın dövlət müstəqilliyi gününə, Azərbaycanın işğal altında olan torpaqlarının azad edilməsi uğrunda 44 günlük müharibəyə, Xocalı soyqırımına, Azərbaycan teatrının 140 illiyinə və s. mövzulara həsr edilmiş topluları göstərmək mümkündür. Belə informasiya resurslarındam istifadə statistikası bu topluların istifadəçilər arasında çox populyar olduğunu göstərir.

Kitabxana öz fəaliyyətini dünya kitabxanaçılıq praktikasının yeni nailiyyətlərinə müvafiq olaraq daim təkmilləşdirir. Bunun üçün dünyanın bir çox milli və digər kitabxanaları

ilə sıx ikitərəfli əlaqələr qurulmuşdur. Məsələn, Rusiya Dövlət Kitabxanasının yardımı ilə Milli Kitabxanada elektron dissertasiyalar bölməsi yaradılmışr ki, orada oxucular distant olaraq Rusiya Dövlət Kitabxanasının Elektron Dissertasiyalar fonduna daxil olub oradakı sənədlərdən yararlana bilirlər.

Kitabxananın fəaliyyətində elmi tədqiqat fəaliyyəti də mühüm yer tutur. Kitabxananın bir çox əməkdaşları elmi tədqiqat fəaliyyəti ilə də məşğul olur, müxtəlif maraqlı mövzular üzrə elmi araşdırmalar aparır, məqalələr dərc etdirir, dissertasiyalar müdafiə edərək alimlik dərəcəsi alırlar. Məsələn, Kitabxananın direktoru kitabxanaçılıq sahəsinə fəlsəfə doktoru, professordur. 1980-ci ildən etibarən Kitabxanada müntəzəm olaraq elmi əsərlər məcmuələri nəşr edilir ki. burada da əsasən Kitabxananın əməkdaşlarının elmi məqalələri dərc edilir. Onu da qeyd edək ki, dünya kitabxanaçılıq ənənələrinə uyğun olaraq Nazirlər Kabinetinin 2004-cü ilin aprelin 15 tarixli qərarı ilə Kitabxanaya "Milli kitabxana" statusu verilmişdir.

Kitabxana İFLA, Milli Kitabxanaların Direktorlarının Konfransı və Avropa Milli Kitabxanalar Konfransı, Avrasiya Kitabxana Assambleyası və digər təşkilatlarla intensiv əlaqələr saxlayır, onların tədbirlərində iştirak edir, fikir mübadiləsi aparır, qarşılıqlı faydalı əməkdaşlıq həyata keçirir. Bütün bunlar Kitabxananın fəaliyyətinin daha da inkişafına, müasirləşməsinə, qarşısında duran vəzifələri daha effektiv yerinə yetirməsinə imkan verir.

**Nəticə**

M. F. Axundzadə adına Azərbaycan Milli Kitabxanasının ölkə əhalisinin sənəd-informasiya və biblioqrafik təminatında, təhsilin, elmin, mədəniyyətin inkişafında ölkədə elmi-texniki tərəqqidə öynadığı xüsusi rol hamıya bəllidir. Məhz bu amilləri nəzərə alan Prezident İlham Əliyev 24 iyun 2023-cü il Milli Kitabxananın yubileyinin dövlət səviyyəsində xüsusi olaraq qeyd edilməsi ilə əlaqədar xüsusi sərəncam imzalamış və həmin yubiley ölkə ictimaiyyəti tərəfindən geniş qeyd edilmişdir. Məqalənin sonunda M. F. Axundzadə adına Azərbaycan Milli Kitabxanasının əməkdaşlarını və eləcə də ölkənin bütün kitabxanaçılarını bu təqdirəlayiq kitabxananın 100 ilik yubileyi münasibəti ilə təbrik edərək bu peşəkar kollektivə nəcib işlərində yeni-yeni uğurlar arzulamaq istərdik.

**Ədəbiyyat**

M. F. Axundov adına Azərbaycan Respublika Dövlət Kitabxanasının nəşrləri (1993). 1923-1993-cü illər: biblioqrafik göstərici. Azərb. Resp. Mədəniyyət Nazirliyi ; M. F. Axundov ad. Azərb. Resp.Dövlət Kitabxanası tərt. ed. F.Məmmədov.

M. F. Axundzadə adına Azərbaycan Milli Kitabxanasının illik hesabatları. 2000-2016-cı illər.

M.F. Axundov adına Azərbaycan Dövlət Kitabxanasının 2000-ci il üçün hesabatı.

M.F.Axundov adma Milli Kitabxananın 2004-cü il üçün hesabatı.

M.F. Axundov adına Azərbaycan Milli Kitabxanasının 2006-cı il üçün hesabatı

https://www.millikitabxana.az/databases/index